AZƏRBAYCAN QİDA TƏHLÜKƏSİZLİYİ İNSTİTUTU

# QİDA OBYEKTLƏRİNİN “REYTİNQ” LAYİHƏSİ ÜZRƏ QİYMƏTLƏNDİRİLMƏSİ XİDMƏTİ ÜZRƏ QİYMƏT TƏLİMATI

| Hazırladı | Yoxladı | Yoxladı | Təsdiqlədi |
|---|---|---|---|
| Qida subyektlərinin qiymətləndirilməsi şöbəsinin böyük mütəxəssisi **Tural Aslanov** | Xidmətlərin təşkili departamentinin müdir müavini **Ziyabəddin Hüseynov** | Keyfiyyətə nəzarət departamentinin müdiri **Vüqar İsmayılzadə** | Keyfiyyəti İdarəetmə Sisteminin qrup lideri **Tamilla Əliyeva** |
| | | | |

## 1. TƏLİMATIN MƏQSƏDİ

Bu təlimatın məqsədi Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu (bundan sonra - İnstitut) tərəfindən qida obyektlərinin "Reytinq" layihəsi üzrə qiymətləndirilməsi ilə bağlı göstərilən xidmətlərə dair əsas prinsipləri, fəaliyyət mərhələlərini və qiymət formalaşma meyarlarını müəyyən etməkdir.

## 2. ƏLAQƏLİ SƏNƏDLƏR

- Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının 2020-ci il 3 noyabr tarixli 19 nömrəli qərar
- Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədrinin 2022-ci il 27 dekabr tarixli Ü/151 nömrəli Əmr
- "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VİQ nömrəli qanunu

## 3. TERMİNLƏR

- **Qiymətləndirmə** - müəssisənin fəaliyyət proseslərinin, istehsal və xidmət şəraitinin, sanitar-gigiyenik tələblərə uyğunluq səviyyəsinin, GMP, GHP və HACC sistemlərinin tətbiq səviyyəsinin yoxlanılması;
- **HACCP (Təhlükə Analizi və Kritik Nəzarət Nöqtələri) –** qida və yem məhsullarında təhlükə amillərinin müəyyən edilməsi, qiymətləndirilməsi və onlara nəzarət olunması sistemi;
- **GMP (Good Manufacturing Practices)** – Qida məhsullarının təhlükəsiz və keyfiyyətli istehsalı üçün müəssisədə texnoloji proseslərin, avadanlıqların və işçi davranışının müəyyən edilmiş qaydalara uyğun idarə olunmasıdır.
- **GHP (Good Hygiene Practices)** – Qida zəncirində gigiyena, təmizlik və sanitar şərtlərin qorunması üçün tətbiq olunan tədbirlər və prosedurlardır.

## 4. CAVABDEHLƏR

- Xidmətlərin təşkili departamenti

## 5. TƏLİMATIN TƏSVİRİ

**5.1.** Qida obyektlərinin "Reytinq" layihəsi üzrə qiymətləndirilməsi xidmətinin icrasına info@afsi.gov.az elektron poçt adresinə daxil olan müraciət ərizəsi qəbulu ilə başlanılır.

**5.2.** Daxil olan müraciət ərizəsinə əsasən müraciət edən qida subyektinə xidmət müqaviləsi göndərilir və müqavilə imzalandıqdan sonra xidmətin icrasına başlanılır.

**5.3.** Qida obyektlərinin "Reytinq" layihəsinə dair qiymətləndirilməsi xidməti 500 AZN olaraq müəyyənləşdirilmişdir.

**5.4.** Qiymətləndirmə xidməti nəticəsində qida obyekti qida təhlükəsizliyi sahəsində texniki-normativ hüquqi aktlarla müəyyən olunan tələblərə uyğun olduqda "3 ulduz", texniki-normativ hüquqi aktlarla müəyyən olunan tələblərə və əlavə olaraq GMP və GHP üzrə tələblərə uyğun olduqda  4 ulduz" ilə qiymətləndirilir. "5 ulduz" ilə qiymətləndirilmək üçün isə sadalan tələblərə əlavə olaraq qida obyektində HACCP sisteminin tətbiqi tələb olunur. Qiymətləndirmə nəticəsinə əsasən qida obyektinə sertifikat təqdim edilir.

## DƏYİŞİKLİKLƏRİN QEYDİYYAT VƏRƏQİ

| **SƏNƏDİN ADI** | QİDA OBYEKTLƏRİNİN “REYTİNQ” LAYİHƏSİ ÜZRƏ QİYMƏTLƏNDİRİLMƏSİ XİDMƏTİ ÜZRƏ QİYMƏT TƏLİMATI |
|---|---|
| **SƏNƏD №** | AQTİ-KİS-T-039 |

| Tarix | Dəyişiklik № | Səhifə № | Dəyişikliyin təsviri | İcra etdi | Təsdiq etdi |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |